

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 225 (23.867)

*3 dekabr 2021-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Dekabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Ali Təhsil Şurasının sədri Erol Özvarı qəbul edib. Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, təhsil sahəsində əməkdaşlığın əlaqələrimizin möhkəmlənməsində rolu qeyd olunub. Erol Özvarın səfərinin bu sahədə əlaqələrimizin genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə edilib. Söhbət zamanı təhsil sahəsində əməkdaşlığın perspektivləri, o cümlədən ölkəmizdə Azərbaycan-Türkiyə birgə universitetinin yaradılması və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Sonda dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olunub.

***

Prezident İlham Əliyev dekabrın 2-də ABŞ-ın Şimali Karolina Universitetinin biokimya və biofizika fakültəsinin professoru, Kimya üzrə Nobel mükafatı laureatı, DNT sahəsində mühüm kəşfləri ilə tanınan, ABŞ Milli Elmlər Akademiyasının üzvü, dünya şöhrətli alim Əziz Sancarı qəbul edib.

Dövlətimizin başçısı Vətən müharibəsi zamanı Əziz Sancarın Azərbaycanın haqlı mövqeyini şəxsən dəstəkləməsini və təbrik etməsini yüksək qiymətləndirərək bunun ölkəmizin haqq səsinin dünyada ucaldılması işinə xidmət etdiyini vurğulayıb.

## Naxçıvan Muxtar Respublikası sosial-iqtisadi inkişafın innovativ mərhələsində



***Azərbaycanda aparılan islahatlar, düşünülmüş siyasət ölkəmizin hərtərəfli inkişafını təmin edir. Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müasir qlobal çağırışlar əsasında zənginləşdirilərək, uğurla davam etdirilən milli inkişaf strategiyası ölkəmizin və xalqımızın gələcəyinə böyük nikbinliklə baxmağa imkan verir. Son on il ərzində Azərbaycan dünyada ən sürətli templə inkişaf edən dövlət kimi tanınır. Bunun başlıca səbəbi elmi əsaslara söykənən iqtisadi islahatların siyasi islahatlarla tamamlanması və uzlaşdırılmasıdır. Azərbaycanın bu təcrübəsi dünyada maraqla qarşılanır və öyrənilir.***

Dövlət başçımızın qarşıya qoyduğu ən mühüm vəzifələr sırasında sosial-iqtisadi inkişafın innovativ və kreativ vasitələrlə sürətləndirilməsi mühüm yer tutur. İnnovasiya proseslərinin intensivliyinin artması hazırda qlobal iqtisadi sistemdə baş verən dəyişikliklərin mühüm istiqamətlərindəndir. İnnovasiya mühiti üçün əlverişli şəraitin yaradılması prosesi olduqca mürəkkəb və resurs həcmlidir və burada yaradıcı rol dövlətə məxsusdur. İqtisadiyyatın inkişaf etdirilməsində innovasiyaların, yeni texnologiyaların tətbiqi ilə yanaşı, iqtisadi münasibətlərin etibarlılığı və sabitliyini təmin edən, cəmiyyətin praktik olaraq əhəmiyyətli məsələlərinin ən effektiv həllinə imkan yaradan hüquqi vasitələr də xüsusi əhəmiyyət daşıyır.

İnkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasında da innovasiya siyasətinin həyata keçirilməsinə dövlət səviyyəsində çox böyük əhəmiyyət verilir. Nəzərə almaq lazımdır ki, müasir innovasiya siyasəti dövlətin sosial-iqtisadi siyasətinin tərkib hissəsi olmaqla, hakimiyyət orqanlarının elm, texnika və elmi-texniki nailiyyətlərinin həyata keçirilməsi sahəsində apardığı fəaliyyətin məqsədini, istiqamət və formalarını müəyyənləşdirir.

Ötən dövr ərzində ölkə iqtisadiyyatının inkişafının müxtəlif istiqamətlərinin vahid Dövlət proqramları çərçivəsində tənzimlənməsi, iqtisadi inkişafın sürətləndirilməsi, sosial-iqtisadi inkişafda regionların rolunun yüksəldilməsi, iqtisadiyyat sahələrinin və regionların kompleks inkişafının təmin edilməsi nəticəsində əhalinin rifah halının və həyat standartlarının təkmilləşdirilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir.

Qeyd olunan ümumi inkişaf fonunda Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı və sosial həyatı da özünəməxsusluğu ilə fərqlənir. Muxtar respublika iqtisadiyyatının yeni keyfiyyət mərhələsinə yüksəlməsində son on ildə regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş Dövlət proqramlarının uğurlu icrası böyük əhəmiyyət kəsb edir. İqtisadi və sosial inkişafda innovasiya amilinin nəzərə alınması son illərdə qəbul edilən mühüm Dövlət proqramları və sənədlərdə aydın şəkildə ifadə olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" iqtisadiyyatın innovasiyalı inkişafını nəzərdə tutan növbəti mühüm dövlət sənədidir. Proqramda investisiya və innovasiya fəallığının artırılması üçün tədbirlərin görülməsi, yeni texnologiyaların tətbiqi əsasında yerli iqtisadi potensialın gücləndirilməsi, innovativ təsərrüfatçılıq formalarının yaradılması prioritet vəzifələr kimi qarşıya qoyulub.

Muxtar respublikamızda iqtisadi və sosial sahələrdə innovasiyaların tətbiqinə hələ yeni əsrin əvvəllərindən başlanıb. İnnovasiyalar daha təkmil texnoloji proses yaradılması, bazara yeni məhsul çıxarılması, həmçinin sosial xidmətlərə yeni tərzdə yanaşma ilə ifadə olunur. Zaman keçdikcə bütün sahələrdə innovasiyaların artan sürətlə tətbiq olunması muxtar respublikanın sosial-iqtisadi inkişafının müasir və nəzərəçarpan mənzərəsini yaradıb. İqtisadiyyatımızın sahə strukturunda mütərəqqi dəyişikliklər, ənənəvi sahələrlə yanaşı, texnoloji və elm tutumlu yeni sahələrin meydana gəlməsi, yeni məhsulların istehsalı, mövcud məhsulların yeni növ və modifikasiyalarda bazara çıxarılması ilbəil daha geniş miqyas alıb. İstehsala uzunmüddətli innovativ yanaşmanın nəticəsidir ki, hazırda muxtar respublikada 384 növdə məhsul istehsal olunur, 350 növdə məhsula tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Sənayedə və kənd təsərrüfatında müasir texnologiyaların, yeni xammal növlərinin istehsala cəlb olunması texnoloji yönümlü innovasiyaların yayılmasını sürətləndirir.

Muxtar respublikanın vergi, maliyyə və bank sektorunda innovasiyaların tətbiqi geniş vüsət alıb. Ən müasir texnologiyaların istifadəsi diqqətdə saxlanılıb, nağdsız ödəniş sistemləri, elektron bankçılıq təşəkkül tapıb və inkişaf etdirilib. Maliyyə xidmətlərinə sürətli, asan və səmərəli çıxışı təmin edən yeni ödəmə texnologiyaları, bankomatlar, ödəniş terminalları istifadəyə verilib, sürətli pulköçürmə imkanları yaradılıb. Bununla bərabər, ticarətin daha müasir, yüksək rahatlığı və funksionallığı ilə seçilən supermarketlər, alış-veriş mərkəzləri, ixtisaslaşdırılmış satış şəbəkələri vasitəsilə həyata keçirilməsi təmin edilib. Muxtar respublikada müxtəlif yarmarka və festivalların təşkili yerli məhsulların tanıdılmasına, ailə təsərrüfatlarında əmtəəlik istehsal və bazar təcrübəsinin inkişafına xidmət edən təşkilati innovasiyalardır. Ailə təsərrüfatları üçün müvafiq sahələr üzrə məsləhət və maarifləndirmə xidmətlərinin təşkili, qablaşdırma, etiketlənmə, markalanma dəstəyinin göstərilməsini də yeniliklərə aid etmək olar.

Elm və təhsil müəssisələrində yaradılan müasir informasiya-kommunikasiya infrastrukturunun interaktiv təhsil sisteminə qoşulması isə kadr hazırlığında yeni dövrün əsasını qoyub. Muxtar respublikanın informasiya-rabitə sistemi tamamilə yeni nəsil texnologiyalar əsasında qurulub, "Elektron hökumət" portalı vasitəsilə əhaliyə 300-ə yaxın elektron xidmətin göstərilməsi təmin edilib. Enerji təsərrüfatı smart texnologiyaların tətbiqi mərhələsinə yüksəlib. Muxtar respublikada istifadəyə verilmiş Günəş elektrik stansiyaları dövrümüzün ən qabaqcıl innovasiya nümunəsidir.

Bu gün kənd yaşayış məntəqələrində əhalinin bütün zəruri xidmətləri eyni məkanda əldə etməsinə imkan verən kənd və xidmət mərkəzləri, vətəndaşlara yaşadıqları ərazidə göstərilən səyyar xidmətlər, nümunəvi təsərrüfat və ailə təsərrüfatı layihələri, Ağbulaq Turizm İstirahət bölgəsi kimi muxtar respublikaya məxsus sosial və biznes yönümlü innovasiyalar orijinal ideyası və yüksək səmərəliliyi ilə seçilir.

Azad sahibkarlıq fəaliyyətinin geniş vüsət aldığı muxtar respublikada yerli ehtiyatlar hesabına müxtəlif növdə sənaye məhsulları istehsalının təşkili, aqrar sektorda emal sənayesinin genişləndirilməsi, sosial xidmət sahələrində kiçik və orta sahibkarlığın daha da gücləndirilməsi öz bəhrəsini verməkdədir. Beləliklə, sadaladığımız sahələr üzrə həyata keçirilən və görülən işlər muxtar respublikanın, bütövlükdə, sosial-iqtisadi sahələrinin inkişafının innovativ və kreativ imkanlarla sürətli şəkildə inkişafını bir daha sübut edir.


**Nihad MEHBALIYEV**
*Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat kafedrasının müəllimi*


## Tələbələrlə görüş



*Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində hamiliyə verilmiş ixtisaslarda təhsil alan hüquqşünas tələbələr üçün "Ədalətli məhkəmə araşdırması hüququ üzrə" təlim keçirilib.*

Tələbələrin hüquqa dair biliklərini daha da təkmilləşdirmək, eləcə də bu sahəyə olan marağını artırmaq məqsədilə keçirilən təlimdə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası üzrə təhsil alan II və III kurs tələbələri iştirak edib. Əvvəlcə tələbələr məhkəmənin müxtəlif strukturlarında iş şəraiti ilə tanış olub, onları maraqlandıran suallar cavablandırılıb, real məhkəmə prosesi izlənilib.

Təlimin növbəti günündə Ali Məhkəmənin əməkdaşları tərəfindən müxtəlif hüquqi mövzularda çıxışlar edilib. Sonrakı gün tələbələrə kazuslar verilib, onlar komanda şəklində kazusları cavablandırıblar.

Sonda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi, Kommersiya kollegiyasının sədri Əhliman Xıdırov "Ədalətli məhkəmə araşdırması hüququ üzrə" tələbələrə təlim keçib.

Layihənin sonuncu günü Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev tələbələrlə görüşüb, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə bağlı sərəncamlarından irəli gələn vəzifələrin yerinə yetirilməsinin əhəmiyyətindən danışıb. Bildirib ki, müasir dünyada hər bir sahədə inkişafın əsas hərəkətverici qüvvəsi ixtisaslı kadr hesab olunur və hüququn müasir dövlət həyatında tutduğu çox əhəmiyyətli və böyük payın təbii nəticəsi olaraq hüquqşünasın təhsili də böyük əhəmiyyət daşıyır və tələbələrin dövlət orqanlarında təcrübə qazanmaları da bu təhsilin bir hissəsidir. Ona görə də bu Sərəncam tələbələrin yaxşı mütəxəssis kimi yetişmələri baxımından atılan mühüm addımdır. Tələbələrin nəzəri biliklərlə yanaşı, praktik bacarıqlara yiyələnməsi baxımından Sərəncamın əhəmiyyətini vurğulayan Qasım Əliyev qeyd edib ki, bu istiqamətdə nəzərdə tutulan vəzifələrin uğurlu şəkildə icra olunmasını təmin etmək məqsədilə Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün seminar-məşğələlərin keçirilməsi, onların məhkəmə proseslərində iştirakının təmin olunması təşkil edilir.

Sonra tələbələri maraqlandıran suallar cavablandırılıb. Təlim 5 gün davam edib.


*Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti*

# Muxtar respublikada sağlamlıq imkanları məhdud şəxslərə davamlı qayğı göstərilir

*Birləşmiş Millətlər Təşkilatının 14 oktyabr 1992-ci il tarixli qərarı ilə 3 dekabr Beynəlxalq Əlillər Günü kimi qeyd olunur.*

Ölkəmizdə məhdud fiziki imkanlı şəxslər hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə əsası qoyulan bu siyasət hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, bu sahədə qanunvericilik bazası daha da təkmilləşdirilir. Cəmiyyətin ümumi inkişaf prosesinə uyğun olaraq bu kateqoriyadan olan şəxslərin sosial təminatını daha da yaxşılaşdıran, habelə ayrı-ayrı sosial məsələlərin həllinə imkan yaradan qanunlar qəbul edilir, eyni zamanda onların maddi təminatını gücləndirmək məqsədilə yeni təqaüd və müavinətlər təsis edilir, pensiyaların və digər sosial ödənişlərin məbləği mütəmadi artırılır.

***"Hər bir vətəndaş bizim üçün qiymətlidir, dəyərlidir. Fiziki cəhətdən qüsurlu insanlar isə xüsusi qayğıya layiqdirlər və biz çalışırıq ki, bunu edək"***, – deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu sözləri isə sağlamlıq imkanları məhdud olan şəxslərin sosial müdafiəsinin daim gücləndirilməsində öz əməli təsdiqini tapır.

Naxçıvan Muxtar Respublikasında müvafiq kateqoriyadan olan şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların minik avtomobilləri və texniki-bərpa vasitələri ilə təmin edilməsi, təhsil almaları, məşğulluq imkanlarının yüksəldilməsi, istedad və bacarıqlarının inkişaf etdirilməsi, habelə asudə vaxtlarının səmərəli təşkili üçün hərtərəfli şərait yaradılmışdır. Naxçıvan şəhərində Əlillərin Bərpa Mərkəzinin, Uşaq Bərpa Mərkəzinin və Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin fəaliyyət göstərməsi bu kateqoriyadan olan şəxslərin müalicəsinin və reabilitasiyasının təşkilində mühüm əhəmiyyətə malikdir. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində distant təhsil mərkəzinin yaradılması isə hərəkət qabiliyyəti məhdud şəxslərin təhsilə cəlbinə geniş imkanlar yaratmışdır.

Hazırda tənha ahıl və sağlamlıq imkanları məhdud 300-ə yaxın şəxsə evlərində sosial-məişət xidməti göstərilir, onların sosial problemlərinin həlli və vaxtaşırı tibbi müayinədən keçmələri təmin edilir. Bununla yanaşı, sağlamlıq imkanları məhdud şəxslərin tibbi və sosial reabilitasiyası məqsədilə cari il ərzində Əlillərin Bərpa Mərkəzində 215, Uşaq Bərpa Mərkəzində 224 sağlamlıq imkanları məhdud şəxsə tibbi xidmət göstərilmişdir. Həmçinin sağlamlıq imkanları məhdud 571 nəfər texniki reabilitasiya və digər köməkçi vasitələrlə təmin edilmiş, 240 nəfərə isə protez-ortopedik xidmətləri göstərilmişdir.





Məhdud fiziki imkanlı şəxslərin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası müvafiq kateqoriyadan olan şəxslərin sosial müdafiəsinin güclənməsinə əsaslı zəmin yaradır. Bu ilin ötən dövründə bu kateqoriyadan olan 75 şəxs münasib işlə təmin olunmuş, 60 nəfər sosial xarakterli haqqödənilən ictimai işlərə cəlb edilmiş, özünüməşğulluqların təmin edilməsi məqsədilə ailə üzvləri arasında sağlamlıq imkanları məhdud şəxs olan 148 ailəyə isə fərdi təsərrüfatlarını formalaşdırmaq üçün köməklik göstərilmişdir. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikasında 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrasına uyğun olaraq, məhdud fiziki imkanlı qadınlar tərəfindən toxunmuş 2500 cüt yun corab, 1000 ədəd yun boyunluq və 800 ədəd yun jilet haqqı ödənilməklə təhvil alınmış və hərbi hissələrə təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası isə bu qəbildən olan uşaqların təhsil almasına, onların reabilitasiyasına, cəmiyyətə daha fəal inteqrasiyasına yeni imkanlar yaradır. Hazırda sağlamlıq imkanları məhdud uşaqlardan 49-u məktəbəqədər təhsil müəssisələrində, 992-si ümumtəhsil məktəblərində, 7 görmə məhdudiyyətli uşaq xüsusi ibtidai məktəbdə, hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən məktəbə gedə bilməyən 15 uşaq isə distant tədris prosesi vasitəsilə təhsilini davam etdirir.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların və müxtəlif kateqoriyadan olan fiziki imkanları məhdud şəxslərin cəlbi davam etdirilir. Cari ilin ötən dövründə mərkəzdə fəaliyyət göstərən bütün bölmələrə 159, həmçinin mərkəzin defektoloji bölməsinin Şərur rayon filialına 38, Ordubad rayon filialına isə 35 sağlamlıq imkanları məhdud uşaq cəlb edilmişdir. Mərkəzin defektoloji bölməsinin təlim məşğələlərində 83, kinekt oyunlarında 31, kompüter kurslarında 27, əmək terapiyasında 36, musiqi terapiyasında 39, psixoloji dəstək xidmətində 58, təlim-bərpa məşğələlərində isə 12 sağlamlıq imkanları məhdud uşaq iştirak etmişdir. Görmə məhdudiyyətli şəxslər üçün "Könül işığı", eləcə də bu kateqoriyadan olan uşaqlar üçün "Şəfəq" adlı brayl jurnalların nəşri davam etdirilmiş, il ərzində audiokitabxana xidmətinə 22 əsər əlavə edilmişdir.

Cari il ərzində tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud 295 şagird məktəbli geyimi və ləvazimatları, eləcə də qış geyimi ilə təmin edilmişdir. Ümumilikdə, Dövlət proqramının icrasına uyğun olaraq uşaqlar arasında şeir, bilik, rəsm və digər növlər üzrə yaradıcılıq müsabiqələri 2021-ci ilin ötən dövründə də davam etdirilmiş, həmin müsabiqələrdə, ümumilikdə, 300-ə yaxın sağlamlıq imkanları məhdud uşaq iştirak etmişdir.

Sağlamlıq imkanları məhdud şəxslərin idman qruplarına cəlbi və onların cəmiyyətə inteqrasiyası məqsədilə muxtar respublikanın bütün rayonlarında müxtəlif idman növləri üzrə yeni idman bölmələri yaradılmış, məşqçi-müəllimlər müəyyənləşdirilmişdir. Hazırda muxtar respublika üzrə Paralimpiya Federasiyasının 16 bölməsi fəaliyyət göstərir.

Görülən bu işlərlə yanaşı, cari il ərzində ölkəmizin digər regionlarından olan 400-ə yaxın sağlamlıq imkanları məhdud şəxsin muxtar respublikaya səfərləri təşkil olunmuş, onlar Naxçıvan Diaqnostika Müalicə Mərkəzində, Duzdağ Fizioterapiya Mərkəzində və Darıdağ Arsenli Su Müalicəxanasında müalicə almışlar. Həmçinin bu səfərlər zamanı qonaqların muxtar respublikanın turizm əhəmiyyətli məkanlarına ekskursiyası və onlar üçün sağlamlıq imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupunun konsert proqramları təşkil olunmuşdur.

Muxtar respublikada sosial-iqtisadi sahədə dinamik inkişafın təmin olunması bundan sonra da məhdud fiziki imkanlı şəxslərin rifahının daha da yaxşılaşmasına, onların cəmiyyətə aktiv inteqrasiyasına imkan verəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Ailə təsərrüfatlarımız*

# Ailə təsərrüfatlarının formalaşmasında əməksevərlik və ailə birliyi əsas şərtlərdəndir

***Bu gün muxtar respublikada yaradılan çoxsaylı ailə təsərrüfatları əhalinin rifah səviyyəsinin yüksəlməsinə öz töhfəsini verən kiçik təsərrüfat birlikləri kimi diqqəti cəlb edir. Adından da göründüyü kimi, bu birlik ailəni təşkil edən fərdlərin ayrı-ayrılıqda əməyinin birgə hədəfə yönləndirildiyi bir təsərrüfat formasıdır. Ailə təsərrüfatlarının formalaşmasında əməksevərlik, ailə birliyi əsas şərtlərdəndir. Bu sahənin üstün xüsusiyyətləri ondan ibarətdir ki, kənd yerlərində məskunlaşan ailələrin istehsal etdiyi məhsullarla həmin ailələrin həm öz istehlak tələbatlarının müəyyən bir qismi ödənilir, həm də artırılan təsərrüfat məhsullarını satmaq və ya dəyişdirmək yolu ilə gəlir əldə edilir. Bu isə ailələrin sosial rifah halının yaxşılaşmasına ilə yanaşı, muxtar respublikada kənd təsərrüfatının inkişafına öz təsirini göstərir. Belə ailə təsərrüfatı başçılarından biri də halal zəhmət adamı, əməksevər ailə başçısı Naxçıvan şəhər sakini Kamran Kazımovdur.***

Kamran Kazımov digər ailə təsərrüfatçılarından fərqli, özünəməxsus kənd təsərrüfatı məhsulları hazırlayır. Bu məhsulların içərisində sarımsaq və soğan tozu, xüsusilə seçilir. Bununla yanaşı, Kamran müəllim meyvə və müxtəlif dərman bitkilərinin qurudulmuşunu da xüsusi paketlərdə istehsal edir. Söhbət zamanı o bildirdi ki, dünyada gedən qlobal proseslər – iqlim dəyişikliyi, ekoloji çirklənmə, məlum pandemiya bir neçə ildir ki, ailəmizin sənaye üsulu ilə hazırlanmış bəzi qidalardan imtina edib sağlam qidaya keçməsinə səbəb oldu. Ailəmlə birgə asudə vaxtlarımızda meyvə və tərəvəz qurutmağa başladıq. Bir ay öncə bu məşğuliyyətimizi biznesə çevirməyi qərara aldıq. Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə məhsullarımın nümunələri ilə müraciət etdim. Orada ailə təsərrüfatı layihəsi haqqında mənə ətraflı məlumat verdilər və bu proqrama qoşulmağımı təklif etdilər. Beləcə, ailə təsərrüfatım yarandı. Həmin qurumda məhsulların standartlara uyğun hazırlanmasında nələrə diqqət yetirməli olduğumu, məhsulların qablaşması qaydaları, etiketlərinin düzgün tərtib olunması barədə geniş məlumat verdilər. Elə həmin gün Naxçıvan Şəhər İcra Hakimiyyətinə getdim, orada məhsullarımı "Ailə təsərrüfatı məhsulları" satış yarmarkasına çıxarmağımı tövsiyə etdilər. Daha sonra məhsullarımın muxtar respublikamızda fəaliyyət göstərən, ticarət obyektlərinə, marketlərə verilməsinə dəstək oldular, hətta etiketlərimi də çap etdirib təmənnasız mənə təqdim etdilər. Bu səbəblərdən hər iki quruma minnətdarlığımı bildirirəm.





"Bəs nə üçün məhz soğan və sarımsaq tozunu hazırlamağı qərar verdiniz?" sualıma müsahibim cavab olaraq dedi ki, Azərbaycanda hələ 850 il bundan əvvəl Nizami Gəncəvi, sonralar isə Məhəmməd Yusif Şirvani öz əsərlərində sarımsağın və soğanın əhəmiyyətindən, faydalı cəhətlərindən bəhs ediblər. Həmçinin bu bitkilər güclü antibakterial təsirə malikdir. Bu tərəvəzlər çox faydalı olsa da, qoxularına görə onları ictimaiyyətdə tez-tez görünən, iş yerlərində əmək fəaliyyəti ilə məşğul olduqları üçün kollektiv içində olan adamlar gündəlik istifadə edə bilmirlər. Eyni zamanda immunitetlərini möhkəmləndirmək baxımından uşaqlarımız üçün hədsiz dərəcədə faydalı olan bu tərəvəzləri xoşagəlməz iy və dad səbəbindən onların gündəlik qida rasionuna daxil etmək müşkül məsələdir. Bütün bunları düşünərək sarımsaq və soğanın tozunu hazırladıq. Qeyd edim ki, bu tərəvəzlərin tozları özündən fərqli olaraq yeməklərə əlavə etdikdə heç bir qoxu, iy hiss olunmur. Tozların hazırlanma prosesi 4 gündən artıq çəkir. Öncə sarımsaq və soğan qabıqlarından təmizlənib yuyulur, doğranılır və qurutma avadanlığına qoyulur. İki gün avadanlıqda quruyan sarımsaq və soğanı daha sonra üyüdüb toz halına gətiririk. Hazırda tozları 30 qramlıq paket şəklində şəhərimizin marketlərinə vermişik.Yaxın günlərdə muxtar respublikamızın digər bölgələrindəki mağaza və marketlərə də satış üçün təqdim edəcəyik. Onu da bildirim ki, hazırda təsərrüfatımızda alma, armud, banan, kivi, xurma, portağal, limon kimi meyvələri qurutmaqla məşğuluq. Bu quru meyvələri 100 faiz təbii, qatqısız, tərkibi dəyişmədən hazırlayıram. Meyvə quruları çox faydalıdır. Tərkiblərində sellüloz maddəsi var ki, bu da həzmi və maddələr mübadiləsini yaxşılaşdırır. Quru meyvələrdə vitamin və minerallar təzə meyvədə olduğundan daha çoxdur. Həmçinin kalium, natrium, dəmir, karotin, yod, maqnezium, pektin, B qrupu vitaminləri ilə zəngindir. Meyvələrin qurudulmasında xüsusi avadanlıqdan istifadə edirəm. Bu proses iki üsulla mümkündür: birincisi günəş altında, ikincisi xüsusi avadanlıqla. Birinci üsulun çətinliyi qurutma müddətinin xeyli vaxt tələb etməsidir. İkinci isə məhsulun tez bir zamanda qurudulması üçün bütün dünyada üstünlük verilən üsuldur.

Müsahibim söhbətinə davam edərək dedi: – Noyabr ayının 20-si və 21-i tarixlərdə "Naxçıvanqala" Tarix Memarlıq Muzey Kompleksində keçirilən "Ailə təsərrüfatı məhsulları" satış yarmarkasında ilk dəfə idi ki, 16 növdə 200-dən artıq məhsulla iştirak etdim. Bunlar meyvə quruları, sarımsaq və soğan tozları, quru kələm şorbası (borş), meyvə və qızılgül qarışımlı kəklikotu çayı, həmçinin əl işlərim olan diyarımızın tarixi abidələrinin və komplekslərinin şəkilləri təsvir olunan maqnitlər (maqnitlərə əlavə elədiyim QR kodu smartfonun kamerasına yaxınlaşdırdıqda anında ekranda Naxçıvanda yerləşən bütün tarixi abidələr və komplekslər haqqında məlumat əks olunur), uşaqlar üçün hazırladığım böyük yumurta qutular, QR kodla oxunan canlı çərçivələr idi. Yarmarkada stendimə şəhərimizin sakinləri ilə yanaşı, xarici turistlərin və ölkəmizin digər bölgələrindən gəlmiş yerli blogerlərin marağı məni çox sevindirdi. Ailə təsərrüfatı məhsullarının faydası ilə yanaşı, qablaşması və hər birinin üzərlərində QR kod olması da yarmarkaya gələnlərin diqqət və marağına səbəb oldu. Maraqlananlar elə oradaca smartfon telefonları vasitəsilə QR kodları skan edib anında məhsulların hazırlanması, faydaları, tərkibləri barədə ətraflı məlumat əldə edirdilər. Məhsulların qablaşmasında kraft kağız paketlərindən istifadə etmişdim, hansı ki bu təbii tərkibli paketlər plastik qablara nisbətən çox qısa çürümə müddətinə malikdir və parçalanma zamanı ətraf mühitə zərərli maddələr düşmür.

Son olaraq bunu da demək istərdim ki, muxtar respublikamızın rəhbəri tərəfindən ailə təsərrüfatlarına göstərilən yüksək diqqət və qayğı, yaradılan şərait məni təsərrüfatımı daha da böyütməyə, yeni avadanlıqlar almağa, istehsal həcmini artırmağa sövq edir. İnşallah, önümüzdəki aylarda meyvə qurusu çeşidlərinə yenilərini əlavə etməyi düşünürəm. Yeni tozlar üçün də ideyalarım var. 2022-ci ildə istehlakçıların məhsullarımı onlayn şəkildə sifariş verib qapıda təhvil almaları üçün mobil tətbiq və internet saytının da hazırlanması planlarım var. Bunları deməkdə məqsədim odur ki, Naxçıvanın ən böyük oxucu kütləsinə malik "Şərq qapısı" qəzeti vasitəsilə hər hansı əl işini, bacarığı, qabiliyyəti biznesə çevirmək ideyası olan ailələr muxtar respublika rəhbərinin bu sahədə yaratdığı geniş imkan və şəraitdən xəbərdar olsunlar. Ailə təsərrüfatlarını daim işıqlandırdığınız üçün sizə, redaksiya kollektivinizə minnətdarlığımı bildirirəm.

*Bu gün ailə təsərrüfatları xüsusi təsərrüfat növü olub əməyə və iqtisadi fayda götürmək prinsipinə əsaslanan sahibkarlıq formasıdır. Əlbəttə ki, bu sahədə qazanılan təcrübə əhalinin keyfiyyətli yerli məhsullara olan tələbatını ödəməklə yanaşı, kənd yerlərində yaşayan əhalinin məşğulluğunun təmin edilməsinə və sosial-iqtisadi inkişafa da öz töhfəsini verməkdədir.*

**Aytac CƏFƏRLİ**

Kamil Əliyev - 100

# Kamil Əliyev yaradıcılığının bədii sənətkarlıq xüsusiyyətləri

***Çoxəsrlik tarixə və zəngin bədii ənənələrə malik olan Azərbaycan xalçasının uzaq-yaxın keçmişinə nəzər yetirsək, onun bədii tutumunda gördüyümüz ciddi dəyişikliklərin bilavasitə XX əsrdə baş verdiyini deyə bilərik. Bunu şərtləndirən səbəblərdən başlıcası sovet dönəmində xalçaçılıqla məşğul olan dövlət müəssisələrinin yaradılması, elmi-tədqiqat müəssisələrində onun tarixinin tədqiqinə başlanılması, paytaxtda yeni açılmış Bakı Rəssamlıq Texnikumunda xalq sənətlərinin tədrisinin həyata keçirilməsi olmuşdur. Ötən əsrin otuzuncu illərində xalça sənəti ənənələrini professionalcasına öyrənmək istəyi ilə həmin təhsil ocağına üz tutan gənclərdən biri də Kamil Müseyib oğlu Əliyev (1921-2005) olmuşdur.***



Məlumat üçün deyək ki, o, 1921-ci ildə Qərbi Azərbaycanın İrəvan şəhərində anadan olsa da, sonrakı həyatı Bakı ilə bağlı olmuşdur. Belə ki, onun 11 yaşı olanda ailəsi Bakıya köçmüşdür. Bundan iki il sonra atasının vəfat etməsi anası Xanımı və evin azyaşlı beş uşağını çətinliklərlə üz-üzə qoymuşdur. Buna baxmayaraq, anası var gücü ilə hələ kiçik yaşlarından rəsm çəkməyə böyük həvəs göstərən və məktəbdə "balaca rəssam" kimi tanınan Kamilin arzusunun çiçəklənməsinə çalışmışdır. Yeddiillik təhsildən sonra (1935) Kamilin Bakı Rəssamlıq Texnikumunun tələbəsi adını qazanmasını da bunun göstəricisi saymaq olar. O vaxtlar respublikadakı istedadlı uşaqların bir araya gəldiyi nüfuzlu təhsil ocağında onun bilavasitə xalq sənəti sahəsinə böyük maraq göstərməsi də ailələrində əvvəlcə nənəsinin, sonra isə anasının xalça toxuculuğunu yaşatmalarından qaynaqlanmışdır. Onun məktəbin Teatr-dekorasiya sənəti bölməsində təhsil almasına baxmayaraq, xalçaçılığa davamlı diqqət yetirməsi və bu sahəyə aid maraqlı layihələr hazırlaması zamanında Kamil Əliyevi əhatə edənlərin diqqətindən yayınmamışdır. Atasız evdə həm də ailənin çörəkpulunu qazanmaq məsuliyyətini daşımalı olan gənc rəssam, boş vaxtlarında yerinə yetirdiyi müxtəlif sifarişlərlə ailələrinə böyük maddi dəstək versə də, sonda yaxınlarının tövsiyəsi ilə təhsildən ayrılmadan "Azərxalça" birliyində işə düzəlmişdir. Başqa sözlə desək, o, həmin birliyin təcrübi emalatxanasında surətçıxaran rəssam kimi çalışmaqla, arzusunda olduğu xalça dünyası ilə baş-başa qalmaq imkanı əldə etmişdir. Həmin illər SSRİ-də Nizami Gəncəvinin 800 illik yubileyinin keçirilməsi ərəfəsinə təsadüf etdiyindən, gənc Kamil tanınmış rəssamların Lətif Kərimovun rəhbərliyi altında yaratdıqları "Xəmsə" mövzulu beş xalçanın bədii-texniki həllinin gerçəkləşməsində yaxından iştirak edir. Bu prosesdə respublikanın tanınmış yaradıcı simaları ilə sıx əməkdaşlığı gənc xalçaçı üçün böyük məktəb olur.

Az sonra İkinci Dünya müharibəsinin başlanması onun gələcək arzularının qarşısına sədd çəkir və o, cəbhəyə yollanmaq məcburiyyətində qalır. Qanlı-qadalı müharibə illərində I Belarus cəbhəsində döyüşən gənc rəssam cəbhədən orden və medallarla qayıdır və çox tezliklə müvəqqəti olaraq ayrıldığı sahədə çalışmağa və yaradıcılıq axtarışlarını davam etdirməyə başlayır. Kamil Əliyevin zamanında Ümumittifaq Ticarət Reklamının baş direktoru, Bədii Fondun Yaradıcı-İstehsalat Kombinatının və Bakı Zərgərlik Fabrikinin direktoru, Yerli Sənaye Nazirliyi İstehsalat şöbəsinin müdiri, ən nəhayət, "Azərxalça" Elmi-İstehsalat Birliyinin baş direktoru vəzifələrində çalışması onun bacarıqlı təşkilatçı olduğunu nümayiş etdirmişdir...

Əgər bu gün onun görkəmli xalçaçı-rəssam kimi keçdiyi yaradıcılıq yoluna nəzər salıb dəyərləndirməli olsaq, onda, ilk növbədə, sənətkarın 1958-ci ildə ərsəyə gətirdiyi "Məhəmməd Füzuli" əsərinin adını çəkməliyik. Dahi söz xiridarının vəfatının 400 illiyi münasibətilə toxunan bu xalçanı rəssamın özündə ənənə və müasirliyin qovşağını yaşadan əsərlərinin ilki hesab etmək olar. Əsərin mərkəzi hissəsində şairin portretini yerləşdirən müəllif, onun ətrafını və müxtəlifölçülü haşiyələrini müxtəlif naxışlarla bəzəməklə, obrazla onun əhatələndiyi bədii aura arasında uğurlu əlaqə yaratmış, kompozisiyanın arzulanan bədii bütövlüyünün yaradılmasına nail olmuşdur. Xalçanın ümumi estetikasında rənglərin yığcamlığına və dekorativliyinə üstünlük verilməsi, "qəm şairi"nin cəlbedici və düşündürücü portretinin yaradılması ilə nəticələnmişdir. Əsərin diqqətçəkən məqamı Kamil Əliyevin miniatür üslubu ənənələrindən yaradıcılıqla faydalanmaqla, bədii şərtliyi qabarıq duyulan sənət nümunəsi ərsəyə gətirməsidir. Başqa sözlə desək, müəllif bu əsərində obrazın real ikonoqrafik əlamətlərini qorumaqla, onun stilizə yolu ilə "xalça dili"nə uyğunlaşdırılmasına nail olmuşdur. Yeri gəlmişkən deyək ki, dekorativ-tətbiqi sənət sahəsində bunun əldə olunması vacib və önəmli bədii məziyyətlərdəndir. Qeyd edək ki, bu əsər onun ictimaiyyət arasında və xalçaçılıq məkanında istedadlı portret ustası kimi tanınmasına səbəb oldu.



Bu ilk böyük uğur gənc rəssamı bu yöndə yeni-yeni əsərlər yaratmağa həvəsləndirdi. Beləcə, zamanın axarında müəllif dünyanın və Azərbaycanın bir çox məşhurlarına həsr olunmuş portret-xalçaları ərsəyə gətirdi. Onların arasında Nizami Gəncəvi, İmadəddin Nəsimi, Şota Rustaveli, Aleksandr Sergeyeviç Puşkin, Mirzə Fətəli Axundzadə, Rabindranat Taqor, Heydər Əliyev, Mustafa Kamal Atatürk, Turqut Özal, Süleyman Dəmirəl, Zərifə Əliyeva və digər tanınmış şəxsiyyətlərin obrazları vardır. Bundan əlavə o, "Mənim anam", "Mir Möhsüm ağa", "Avtoportret" və "Tirmə", "Butalı", "İslimibəndlik", "Göllü", "Qımıl", "Sandıqça", "Qızıl xalça" və sair ornamental xalçaların müəllifidir.

Kamil Əliyevin yaradıcılığında əsas yer tutan portretlərin bədii sənətkarlıq xüsusiyyətlərini incələməli olsaq, onda onun bu janrın estetikasını əvvəllər rast gəlinməyən bədii yozumla zənginləşdirdiyini deməliyik. Əgər "Məhəmməd Füzuli" xalçası ilə yanaşı, ötən yüzilliyin yetmişinci illərində ərsəyə gətirdiyi "İmadəddin Nəsimi" (1973) və "Nizami Gəncəvi" (1978) əsərlərində ikonoqrafik oxşarlığın əldə olumasında nisbi stilizə və şərtilik daha qabarıqdırsa, onlardan sonrakı yaradıcılıq nümunələrində










müəllifin dekorativ-tətbiqi sənətə realist-gerçəkçi ənənələri gətirmək istəyi duyulmaqdadır. Etiraf edək ki, zamanına görə bu çox cəsarətli addım idi. Müxtəlif miqyaslı sərgilərdə ictimailəşən bu sənət nümunələrinə mütəxəssis təqdiri və sənətsevər marağının duyulan olması, onun bu istiqamətdəki axtarışlarına daha da təkan vermiş oldu.

Əgər bu portret-kompozisiyalar əvvəllər düzbucaqlı formatda təqdim olunurdusa, tədricən, onların oval və dairəvi formatlarla əvəzləndiyinə şahidlik edirik. Başqa sözlə desək, şaquli formatlı xalçalarda əsas yeri portret, obrazın kimliyini tanıdan yazılı "kətəbə" və müxtəlifölçülü haşiyələr tutur. Elə onun "İmadəddin Nəsimi" və "Nizami Gəncəvi" xalçaları bunun gözəl nümunəsi sayıla bilər. Hər iki əsərdə dahi söz xiridarlarının portretlərini səciyyələndirən cizgilər inandırıcı tutumda əyaniləşdirilməklə, xalçanın digər sahələrini təşkil edən çoxsaylı bədii ayrıntılarla vəhdətdə təqdim olunmuşdur. Nəbati ornamentlərdən, xüsusilə də "İslimi" və "Buta"lardan geniş istifadə edən müəllifin zənginliyi kifayət qədər qabarıq duyulan ümumi dekorun bədii bütövlüyünə nail olmuşdur. Kamil Əliyevin yaradıcılıq axtarışlarında şəxsiyyətinə müraciət etdiyi insanların həm ömür, həm də sənət yolunu özündə ehtiva edən obrazlılığın əldə olunmasına çalışması yəqin ki, onu bir yaradıcı kimi başqalarından fərqləndirən bədii-estetik xüsusiyyətdir. Bu mənada, dünya poeziyasının parlaq ulduzlarından hesab olunan "Nizami Gəncəvi" xalçasında koloritin bir qədər soyuqluğu filosof-şairin bədii irsinin düşündürücülüyünün ifadəsidirsə, "İmadəddin Nəsimi" əsərindəki rəng "qaynarlığı" orta əsrlərin bədii-dini məkanını təlatümə gətirən şairin üsyankarlığına işarədir.

Əsərlərinin təsirliliyini əldə etmək yönündə koloritdən istifadə, yəqin ki, Kamil Əliyev xalçalarının səciyyəvi bədii xüsusiyyətlərindəndir.



Qətiyyətlə demək olar ki, o, yarıməsrlik bədii yaradıcılığı ilə Azərbaycan xalçaçılığında yeni səhifə açmaqla, həm də əsərlərinin təkcə özünəməxsus rəng çalarları ilə tanınmasına nail olmuşdur. Etiraf edək ki, bunun xalçaçılıq kimi çətin bir sahədə əldə olunması yalnız müəllifin davamlı axtarışlarının sayəsində gerçəkləşmişdir. Onun "Şota Rustaveli"(1982), "Heydər Əliyev" (1985), "İndira Qandi" (1986), "Rabindranat Taqor" (1988) və sair xalçalarında koloritin duyulası ovqat daşıyıcısı olması qabarıq görünür.



Xalçaçı-rəssamın yaradıcılığında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin obrazı xüsusi yer tutur. Belə ki, o, 1985, 1998 və 2004-cü illərdə görkəmli dövlət xadiminin bir-birindən fərqli portretlərini yaratmışdır. Doğrudan da, bu sənət nümunələrində format baxımından müəyyən yaxınlıq duyulsa da, obrazın xarakterinin açılmasına münasibətdə özünəməxsus müəllif axtarışlarının yenilənməsinə şahidlik etmək mümkündür. Rəssam öz qəhrəmanını rəsmi geyimdə – dövlət xadimi kimi, general libasında hərbçi kimi göstərməklə yanaşı, həm də rəsmi qayğılardan azad şəkildə – ev şəraitində təqdim etməklə, dahi şəxsiyyətin tarixi obrazına zamansızlığa qovuşmaq gücündə olan bədii tutum verə bilmişdir. Bu üç portretin hər birində məqsədli olaraq fərqli koloritə üstünlük verən müəllif, bununla da obrazın daşıdığı mənəvi-psixoloji yükün inandırıcılığını göstərə bilmişdir.

Əgər ulu öndər Heydər Əliyevə həsr olunmuş əsərlərdə şəxsiyyətin ucalığı və möhtəşəmliyi önə çəkilibsə, dövlət xadiminin ömür-gün yoldaşı görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın (2001) obrazında qadın zərifliyinin cəlbedici ifadəsinə nail olmaq müəllifin başlıca məqsədi olmuşdur. Zərifə xanımın xalçanın zoğalı yerli ara sahəsində – xırda nəbati elementlərdən tərtib olunmuş çərçivə ilə əhatələnmiş portretində onun gülərüzlü çöhrəsi yaddaqalan bədii tutumda əyaniləşdirilmiş, sevimli siması canlandırılmışdır.

Eyni bədii yanaşmanı rəssamın "İndira Qandi" (2001) və "Mənim anam" (2003) xalçalarında müşahidə etmək mümkündür. Bu əsərlərdə də qadın incəliyinin vurğulanmasını qarşısına əsas vəzifə qoyan Kamil Əliyev inandırıcılığı birmənalı olan portretlərlə onları əhatələyən ara sahəyə duyğulandırıcı görkəm verməklə əsəri dominantı olan obrazların cəlbedici görünməsinə nail olmuşdur. Birinci portretdə nəbati naxış məcmusuna, digərində isə tirməli dekora üstünlük verən müəllifin belə bədii yanaşmasının xalçanın bütövlüyünün əldə edilməsində məntiqli olduğunu təsdiqləmişdir...

Sənətkarın bədii irsində xüsusi yer tutan ornamental xalçalar da özünəməxsus bədii xüsusiyyətlərə malikdirlər. Bu sahədə yeni söz deməyin nə qədər çətin olduğunu bilməsinə baxmayaraq, Kamil Əliyev zaman-zaman təxəyyülündə canlandırdığı, bir çox hallarda isə yaradıcı münasibət bildirdiyi ornament toplusuna bədii stilizələrlə yeni forma-biçim və məna-məzmun daşıyıcılığı verə bilmişdir. Onun məşhur "Buta" ornamentinə göstərdiyi münasibət buna əyani nümunə ola bilər. Rəssamın ərsəyə gətirdiyi "Qızılı buta" (1982), "Türünc"(1982), "Ornamental"(1984), "Butalı xalça" (1985), "Hindistan"(1987) və "Butalı" (2004) xalçaları bu qəbildəndir. İncəliyi onsuz da duyulan bu ornamentə fərqli münasibəti sayəsində tətbiq olunduqları kompozisiyalara özünəməxsusluq bəxş edən rəssam, ornamentçi-rəssam kimi həm də fərdi yaradıcı potensialının genişliyini sərgiləyə bilmişdir.

Kamil Əliyevin bədii irsində müşahidə olunan müsbət məziyyətlərdən biri də onun zaman-zaman klassik irsə, məlum xalça kompozisiyalarına yaradıcı münasibət göstərməsi, bunun nəticəsində milli bədii irs saxlancımızı yeni estetikalı əsərlərlə zənginləşdirməsidir. Onun müxtəlif illərdə ərsəyə gətirdiyi "Quşlu", "Butalı", "Türünc", "Tirmə", "Nazənin" və sair kompozisiyalarında ənənə ilə müasirliyin uğurlu vəhdətini görmək mümkündür.

*Bütün həyatını qədim xalça sənəti ənənələrinin yaşadılmasına və inkişafına həsr etmiş Kamil Əliyevin yaradıcılığı Azərbaycanla yanaşı, dünyanın bir çox ölkələrinin sənətsevərlərinə də yaxşı tanışdır. Bu onun həmin ölkələrdə (Türkiyə, Nepal, Hindistan, İran, İngiltərə və sair) fərdi sərgilərinin təşkili sayəsində gerçəkləşmişdir. O, Azərbaycan dekorativ-tətbiqi sənətinin inkişafına verdiyi töhfələrə görə "Azərbaycanın Əməkdar rəssamı" və "Azərbaycanın Xalq rəssamı" fəxri adlarına layiq görülmüş, "İstiqlal" və "Şərəf nişanı" ordenləri ilə təltif olunmuşdur. Bakıda onun ev-muzeyi fəaliyyət göstərir.*

*Kamil Əliyev sənətinin həmişəyaşarlılığı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Kamil Əliyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında" 2021-ci il 12 oktyabr tarixli Sərəncamı, bu Sərəncama uyğun olaraq ölkəmizdə, eləcə də muxtar respublikamızda yubileyin dövlət səviyyəsində qeyd olunması ilə bir daha öz təsdiqini tapır. Bu, böyük sənətkarın irsinə, eləcə də milli dəyərlərimizə verilən yüksək ehtiramın ifadəsi, incəsənət tariximizə yazılacaq mədəniyyət hadisəsidir.*

**Cavid İSMAYILOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, Naxçıvan Dövlət Universitetinin dosenti***

*Gəncliyimiz, gələcəyimiz*

## Mütaliə ən güclü mənəvi tərbiyə üsuludur

*Savadlı olmaq üçün yalnız elmi biliklərə yiyələnmək kifayət deyil, bu işdə mütaliənin də böyük rolu var. Elə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bunu nəzərə alaraq gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşmasına xidmət edən "Oxunması zəruri olan kitablar haqqında" imzaladığı 2017-ci il 28 avqust tarixli Sərəncamı da, bu mənada, böyük əhəmiyyətə malikdir. Ötən müddət ərzində adıçəkilən Sərəncamın icrası istiqamətində həyata keçirilən tədbirlər öz bəhrələrini verməkdədir. Bunu haqqında eşitdiyim və həmsöhbət olduğum Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi Əmir İmanovun timsalında da gördüm.*



O, çoxlu kitab oxumağı ilə yoldaşlarından seçilir. Əmir adıçəkilən Sərəncamla müəyyən edilmiş kitabların hamısını oxuyub. Məlumat üçün bildirim ki, o, 2008-ci ildə Naxçıvan şəhərində ziyalı ailəsində dünyaya gəlib. Deyir ki, kitab oxumağa həvəsim Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində "Oxunması zəruri olan kitablar"la bağlı viktorinada iştirak etdiyim zaman başladı:

– Əgər insan çox mütaliə edərsə, onun dünyaya baxışı da çox zəngin olar. Və bir cəmiyyətdə oxumağı, yazmağı bacaranların sayı nə qədər çox olarsa, əlbəttə ki, o cəmiyyət daha çox inkişaf edər və hər zaman, hər yerdə öz dəyərləri ilə seçilmiş olar. Diqqət yetirsəniz görərsiniz ki, mütaliəni çox edən insanlar həm düşüncə, həm bacarıq, həm də digər baxımdan başqalarından fərqlənirlər. Mütaliə nəticəsində nəyisə öyrəniriksə, bizdə, həmçinin yüksək bacarıqlar formalaşır. Çox kitab oxuyan insan zəngin söz ehtiyatına sahib olur. Bunun nəticəsində o həm də nitq qabiliyyəti qazanır. Ən əsası mütaliə tərbiyə vasitəsidir. Əmir deyir ki, kitabı seçərkən diqqətli olmaq lazımdır. Həm də insan oxuduğunu düzgün dəyərləndirməyi bacarmalıdır. Məsələn, ən son oxuduğum kitab Azərbaycanın İkinci Qarabağ müharibəsindəki Şanlı Qələbəsinə həsr olunmuş "Zəfər salnaməsi" kitabıdır ki, onun hər səhifəsi məndə böyük təəssüratlar yaratdı. Kitabı oxuyarkən Zəfərin əsas formulu kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dönməz siyasi iradəsini, proseslərə strateji baxışını, son 17 ildə yürütdüyü daxili və xarici siyasət nəticəsində ölkənin illər ərzində toplanmış iqtisadi gücünü, erməni işğalı ilə barışmayan xalqımızın və yetişmiş gənc nəslin torpaqlarımızı azad etmək əzmini, Prezident-xalq-ordu birliyinin vahid "Dəmir yumruq"da birləşməsini görürük.

Son olaraq vurğulamaq istərdim ki, muxtar respublikamızda təhsildə yeniliklərin uğurlu tətbiqi gələcəkdə böyük nəticələrin əldə olunacağını deməyə əsas verir. Biz şagirdlər isə yaradılan imkanlardan məharətlə faydalanmalıyıq. Yadda saxlamaq lazımdır ki, bütün bunlar bizim savadlanmağımız üçündür. Biz öz üzərimizdə layiqincə çalışsaq, savadlı bir kadr kimi yetişsək, deməli, Vətənimiz Azərbaycana da xeyir vermiş olacağıq. Onda gəlin hamımız Azərbaycan üçün çalışaq və oxuyaq! Hamımız savadlı olaq!

Məktəbin direktoru Aytən Bağırova öz şagirdi ilə bağlı təəssüratlarını bizimlə bölüşdü. Bildirdi ki, Əmir məktəbdə öz tərbiyəsi ilə seçilən və müəllimlərinin sevimli şagirdidir. O, dərslərini çox yaxşı oxuyur, əsasən, tarix və ədəbiyyat fənlərinə marağı çoxdur. Məktəb kitabxanasından müntəzəm olaraq yararlanır. O, məktəbimizdə təşkil olunan "Xəmsə" milli intellektual bilik yarışlarında mütəmadi iştirak edir. Əmir sinif yoldaşları tərəfindən səmimi və mehriban şagird kimi də sevilir. Təbii ki, məktəb insanlara təhsil, elm, tərbiyə verən, onlara əxlaqi dəyərləri aşılayan bir məkandır. Bu məkanda şərəfli və müqəddəs peşə sahibləri olan müəllimlərin rolu əvəzolunmazdır. Məktəbimizin hər bir müəllimi çalışır ki, şagirdlərimiz təhsil almaqla bərabər, vətənpərvər böyüsün, öz tarixinə, milli dəyərlərinə, dilinə hörmət etsin.

Bu gün muxtar respublikamızda bacarıqlı, savadlı, müasir dünyagörüşlü gənclərin yetişməsi hamımızı sevindirir. Onlardan biri də Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi Əmir İmanovdur. Biz də gələcəyin istedadlı, vətənpərvər gəncinə həyatda uğurlar arzulayırıq.

**✍ Aytac CƏFƏRLİ**

## Dövlət Qulluqçularının Reyestri Proqramı təqdim olunub



Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzində keçirilən tədbiri giriş sözü ilə mərkəzin sədri İsmayıl Qəribli açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi üçün mütəmadi tədbirlər həyata keçirilir. Cari ildə Ali Məclis Sədrinin diqqət və qayğısı ilə mərkəzin maddi-texniki bazası gücləndirilib, vətəndaşlara daha yaxşı xidmət imkanının yaradılması üçün müvafiq tədbirlər davam etdirilib, 2 yeni server avadanlığı və 37 yeni kompüterin quraşdırılması ilə Test mərkəzində eyni anda 51 namizədin imtahan verməsi üçün şərait yaradılıb.

"İnnovativ yeniliklərin tətbiqinin davam etdirilməsi nəticəsində mərkəzin 2 proqram təminatı yenidən işlənib, 2 proqram təminatı isə təkmilləşdirilib", – deyən İsmayıl Qəribli vurğulayıb ki, tədbirdə Dövlət Qulluqçularının Reyestri Proqramı təqdim olunur. Yeni proqram dövlət qulluqçusunun "elektron şəxsi işi"nin yaradılmasına imkan verir.

Sonra mərkəzin Dövlət qulluğu məsələləri şöbəsinin müdiri Razi Məmmədov çıxış edərək slayd vasitəsilə Dövlət Qulluqçularının Reyestrinin aparılması qaydaları haqqında ətraflı məlumat verib.

Bildirilib ki, reyestrin aparılmasına dair anket forması təkmilləşdirilib və yeniliklər əlavə olunub. Dövlət Qulluqçularının Reyestrində aparılan yeniləmələrə uyğun olaraq növbəti ixtisas dərəcələrinin verilməsi haqqında məlumatı əks etdirən bölmə, arayış və sənədlər altbölməsi yaradılıb. Sənədlər altbölməsi dövlət qulluqçusunun elektron sənədlərinin toplanması, istifadəsi və arxivləşdirilməsi üçün əlverişli imkan yaradır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Qulluqçularının Reyestrinin aparılması və məlumatların reyestrə daxil edilməsi qaydaları barədə ətraflı məlumat verilib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

*Estafet*

## Bizi biz edən dəyərlər

Bizi biz edən, eyni duyğu və düşüncə ətrafında birləşdirən çox qiymətli dəyərlərimiz vardır. Bu dəyərlər, sadəcə, cəmiyyətin bərabərliyinin mayası deyildir, eyni zamanda bütün dünyaya nümunə ola biləcək milli etalonumuzdur. Hər insan, ilk növbədə, yaradılmışların ən alisi olduğu üçün dəyərlidir. Bu dəyəri daha da üstün edərək bizi hər kəsdən fərqləndirən isə əsrlərdən bəri sahib olduğumuz milli-mənəvi dəyərlərimizdir. Bəs hansıdır bu dəyərlər? Bunlar xalqımızın min illərdir, qoruyub saxladığı adət-ənənələri, milli xüsusiyyətləri, təbliğ etdiyi bəşəri ideyalarıdır. Keçmişdən bu günə gələn əsrlərin, qərinələrin sorağı bizi bu dəyərlərə bağlayaraq dövrümüzə körpü salmışdır. Xalqımızın bu günümüzə qədər gəlib çatmış və gələcəyə doğru addımlayan qədim, rəngarəng mənəvi dəyərləri, mədəni irsi millətimizin qürur mənbəyidir. Dünyada qloballaşmanın getdiyi bir dövrdə isə xüsusilə də gənc nəsildə adət-ənənələrimizə olan sadiqliyi görmək ayrıca bir qürurdur. Bunları yazmağımda bir səbəb vardır.

Bu günlərdə yolda bir hadisə ilə rastlaşdım. Şəhərin mərkəzi küçələrindən birində yaşlı bir qadın əlində ağır zənbillərlə harasa gedirdi. İti addımlarla irəliləyirdim ki, xanıma yaxınlaşıb ona kömək edim. Bir xeyli kənarda isə yaşları, təxminən, 22, bəlkə də, 23 olan iki gənc söhbət edirdi. Bu zaman gənclərdən biri yaşlı xanımı gördü. Qaçaraq ona yaxınlaşdı, əlindən zənbilləri ədəblə alıb qayğıkeş nəzərlərlə xanıma baxıb onun hansı tərəfə gedəcəyini soruşdu. Yaşlı xanım təkidlə, "çox sağ ol, ay oğul, özüm apararam" desə də, gənc razılaşmadı. Addımlarımı yavaşlatmışdım, amma millətimə duyduğum qürur öndə gedirdi. O anda mənə elə gəldi ki, xalqımızın söz abidəsinə çevrilmiş "Kitabi-Dədə Qorqud" dastanındakı el ağsaqqalı olan Dədəmiz Qorqudu bir daha müqəddəslik zirvəsinə qaldırdıq. Sanki Allahın bütün mərhəməti, hikməti və ədaləti dünyada fitnə-fəsadı aradan qaldırmaq üçün yerə enmişdi. "Mən gözəl əxlaqı tamamlamaq üçün göndərilmişəm", – deyən İslam Peyğəmbərinin "Kiçiyimizə mərhəmət göstərməyən, böyüyümüzə hörmət etməyən bizdən deyil!" hədisi qulağımda səsləndi. Kənardan baxanda çox sadə görünən bu davranış öz-özlüyündə xalqımızın köklü ənənələrinə sadiqliyini göstərərkən həm də milli-mənəvi dəyərini nümayiş etdirir. Məhz bu dəyərlərdir bizi biz edən, hamıdan fərqləndirən və qiymətli edən. Dürüstlüyümüz, təmiz vicdanımız, qürurumuz, qorxmazlığımız, mübarizliyimiz, dönməzliyimiz, vətənpərvərliyimiz hamısı bu dəyərlərin ətrafında birləşib, bütünləşib zirvələrə yüksəlib. Aparılan uğurlu dövlət siyasəti nəticəsində dərinlərə kök atan və gələcəyə doğru uzanan milli dəyərlərimiz bizim dəyişilməyən kimliyimizə çevrilib. Dünyada bu kimliklə tanınmağın özü ayrı bir fəxarətdir. Çünki millətin dəyəri onun milli kimliyini ortaya qoyan xüsusiyyətlərlə bağlıdır. Dəyərlərini itirən millətlər isə tarix səhnəsindən silinməyə məhkumdur!

**İlahə ALLAHVERDİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

## Azərbaycan çempionu ilə görüş

*Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı "Turan" Fitnes Klubunun rəhbəri, bodibildinq üzrə ölkə birinciliyində muxtar respublikanı uğurla təmsil edən Həsənqulu Abdullayevlə görüşüb.*

Qazanılan uğuru yüksək qiymətləndirən Ramil Hacı son zamanlar Naxçıvan idmançılarının peşəkar yarışlarda inamla çıxış etməsinin sevindirici olduğunu deyib. Nazir bildirib ki, muxtar respublikada idmana və idmançılara göstərilən dövlət qayğısı, yaradılan əlverişli maddi-texniki baza gənc nəslin bu istiqamətdə uğurlu karyera qurmasına böyük təkan verir. Şəhər və rayonlarımızda fəaliyyət göstərən fitnes zallarına əhali tərəfindən marağın böyük olmasına baxmayaraq, bodibildinq idman növündə də peşəkar idmançıların formalaşmasına ehtiyac var. Ramil Hacı bu növün planlı və strategiyalı şəkildə inkişaf etməsi üçün qazanılan təcrübənin yeni nəslə ötürülməsinin vacibliyini ifadə edib, bu yöndə lazımi dəstəyin göstəriləcəyini diqqətə çatdırıb.

Göstərilən diqqət və dəstəyə görə minnətdarlığını bildirən Həsənqulu Abdullayev yarışa hazırlıq və yarış günü ilə bağlı təəssüratlarını bölüşüb, həmçinin məşqçilik fəaliyyətini davam etdirdiyini və muxtar respublika idmanında bodibildinqin gələcəyi üçün üzərinə düşən öhdəlikləri yerinə yetirməyə hazır olduğunu deyib. Həsənqulu Abdullayev növbəti il keçiriləcək Avropa çempionatının onun üçün xüsusi önəm daşıdığını və Naxçıvana qızıl medal gətirmək üçün maksimum çalışacağını bildirib.

Nazir Ramil Hacı idmançıya karyerasında uğurlar arzulayaraq ona plaket və hədiyyə təqdim edib.

Xatırladaq ki, klassik bodibildinq üzrə boyu 175 santimetrdən yuxarı idmançılar kateqoriyasında ölkə birincisi olan Həsənqulu Abdullayev bu növdə, həmçinin Azərbaycan çempionatının mütləq qalibi adına layiq görülmüşdü. O, Naxçıvan idmanında bodibildinq üzrə ilk ölkə çempionluğu titulunu qazanmaqla yanaşı, yığma komandanın heyətinə cəlb olunaraq qarşıdakı Avropa çempionatında iştirak etmək hüququ qazanıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Ali təhsil ocağının müəllimi beynəlxalq konfransda çıxış edərək sertifikat qazanıb



Naxçıvan Dövlət Universitetinin müəllimi Səadət Əliyeva yazıçı, ədəbiyyatşünas, ictimai xadim, filologiya elmləri doktoru, professor, 1946-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan Əzizə Cəfərzadənin 100 illik yubileyinə həsr edilmiş onlayn XX Beynəlxalq Elmi Simpoziumda iştirak edib.

Ali təhsil ocağının müəllimi konfransda "Vətəndaş jurnalistikası ənənəvi jurnalistikanın xüsusiyyətlərini daşıya bilirmi?" adlı məqalə ilə çıxış edərək sertifikat əldə edib. Məqalədə jurnalistikamıza yeni xüsusiyyətlər gətirən vətəndaş jurnalistikasının özünəməxsus xüsusiyyətləri araşdırılıb. Müəllif məqalədə özünəməxsus nəzəriyyə qaydaları və etik prinsipləri olan jurnalistikanın bu qolunun daha sərbəst fəaliyyətindən söhbət açaraq qeyd edir ki, vətəndaş jurnalistikasının özünütənzimləmə mexanizmi yoxdur, peşəkarlıq baxımından zəiflik hiss olunur, yarımçıq, birtərəfli və subyektiv işıqlandırılan bəzi hadisələrdə heç bir mənbəyə əsaslanmayan məlumatlar olur.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Sosial könüllülərlə sağlamlıq imkanları məhdud şəxslərin görüşü təşkil edilib

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Gənclər Fondunun birgə təşkilatçılığı ilə sosial könüllülər və istedadlı sağlamlıq imkanları məhdud şəxslərin görüşü keçirilib.*



Tədbirdə çıxış edənlər muxtar respublikada sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası istiqamətində görülən işlərdən danışıb, bu sahədə birgə tədbirlərin əhəmiyyətindən bəhs ediblər. Sağlamlıq imkanları məhdud gənclərdən Nail Hacıyev bu sosial kateqoriyaya aid olan şəxslərin cəmiyyətdəki rolu və istedadlarının üzə çıxarılmasına göstərilən dövlət qayğısına dair çıxış edib, yaradılan şəraitə görə minnətdarlığını bildirib. Daha sonra görüş iştirakçıları müxtəlif uğur hekayələrindən bəhs edən qısametrajlı videoçarxları izləyib, mövzu ətrafında fikir mübadiləsi aparıblar. Digər tədbir iştirakçıları da fərdi inkişafları və əldə etdikləri uğurlardan danışıb, istedadlarına uyğun yaradıcılıq nümunələri hazırlayaraq nümayiş etdiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 1010